# Varşavada Azərbaycanşünaslıq Mərkəzinin 5 illiyi qeyd olunub

**Varşava Universitetinin Şərqşünaslıq fakültəsinin nəzdində fəaliyyət göstərən Azərbaycanşünaslıq Mərkəzinin 5 illiyi qeyd olunmuşdur.**

Tədbirdə səfir Nərgiz Qurbanova, Varşava Universitetinin Şərqşünaslıq fakültəsinin dekanı Piotr Taraxa, Mərkəzi Asiya xalqları və türkologiya kafedrasının rəhbəri Aqata Bareya-Stajinska, Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyinin nümayəndəsi Yusif Vəzirov, eləcə də Varşava Universitetinin müəllim və tələbə heyəti, bu ölkədə fəaliyyət göstərən digər ali təhsil müəssisələrinin təmsilçiləri, Polşada akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, o cümlədən Azərbaycan diasporunun nümayəndələri iştirak etmişlər.

Tədbirdə çıxış edən səfir N.Qurbanova 2023-cü ilin Azərbaycan tarixində və mədəniyyətində bir sıra yubileylər baxımından əlamətdar olduğunu qeyd edərək bu xüsusda Azərbaycanşünaslıq Mərkəzinin yaradılmasının 5 illiyini xüsusi vurğulamışdır. O, mərkəzin əsas missiyasının Azərbaycan dilinin, eləcə də Azərbaycanın qədim tarixinin və zəngin mədəni irsinin təbliği olduğunu bildirmiş, onun həmçinin Azərbaycan və Polşanın elmi tədqiqat dairələri arasında akademik əlaqələrin genişləndirilməsinə xidmət etdiyini söyləmişdir. Səfir mərkəzin bu istiqamətdə aktiv fəaliyyətinin Azərbaycan ilə Polşa arasında mədəni əlaqələrin daha da inkişafına töhfə verdiyini xüsusi məmnunluqla qeyd etmişdir.

N.Qurbanova eyni zamanda Azərbaycanın aparıcı ali təhsil ocaqlarından biri və Cənubi Qafqazın slavyan dillərinin tədrisi sahəsində ən böyük təhsil müəssisəsi olan Bakı Slavyan Universitetində 2006-cı ildən etibarən fəaliyyət göstərən Polyak Dili və Mədəniyyəti Mərkəzinin fəaliyyətini xatırlamışdır. Səfir mərkəzin məqsədinin Azərbaycan və Polşa arasında mədəni əməkdaşlığın genişləndirilməsinə, gənclərin hər iki ölkənin mədəniyyətinə, tarixinə marağının artırılmasına, universitetdə polyakşünaslığın təkmilləşdirilməsinə töhfə vermək olduğunu söyləmişdir.

Azərbaycan.- 2023.- 30 noyabr, № 261.- S.4.